UOT 930:314; UOT 94(479.24)

GÜNAY AŞUROVA
Bakı Dövlət Universitet, Tarix fakültəsi
Dünya azərbaycanlıları: tarixi-demoqrafiya ETL-nin elmi işçisi
TarixVeOnunProblemleri@gmail.com

XIX ƏSRDƏ GƏNCƏ BÖLGƏSİ ÜZRƏ ƏHALİNİN AİLƏ VƏZİYYƏTİ DEMOQRAFİK PROBLEMLƏR KONTEKSTİNDƏ

DOI: https://doi.org/10.36719/2708-065X/103/208-210

Rusiya imperiyasının apardığı müstəmləkə siyasətinin izlərini günümüzdə də regionumuzda hiss etməkdəyik. Cənubi Qafqaz Rusiyanın ucqar sərhədləri olduğundan, bu ərazilərə Rusiyanın mərkəzində aparılan islahatlar gec gəlib çatmış və region olaraq demək olar ki, bütün proqressiv məsələlərə gec başlamışdı. Gəncə bölgəsində də ailə tərkibi və demoqrafik göstəricilərin asılı olduğu səbəblərdən biri miqrasiya və zorla yerli əhalinin öz yurdlarından köçürülməsi idi. Beləliklə Rusiyanın müstəmləkə siyasətində Cənubi Qafqaz regionda Gəncənin başlıca yer tutmasını, onun demoqrafik vəziyyətində bəzi nahamarlıqları görə bilərik.

Açar sözlər: Gəncə quberniyası, demoqrafiya, ailə tərkibi, Rusiya, müstəmləkə siyasəti.

Giriş. XIX əsrdə Cənubi Qafqazın demoqrafik vəziyyət problemi bir sıra məsələləri əhatə edir. İlk əvvəl əhalinin say dinamikası və yerləşməsinin müəyyənləşdirilməsi zəruridir. O cümlədən Gəncə bölgəsinin əhalisinin tərkibi, bu baxımdan önəm kəsb edir. Bu dövrdə əhalinin inkişafına təsir göstərən faktorların, əhalinin yenilənməsi, miqrasiyası, demoqrafik itkilər və.s. amillərin müəyyənləşdirilməsinə də kömək edə bilər.

Rusiya-Qacar müharibələri ilə bağlı olan problemlər bilavasitə Gəncə bölgəsinin ailə vəziyyətinə təsirləri də vardır. Məsələyə geniş aspektdən baxsaq, Rusiyanın digər regionlarda apardığı müharibələrin, Cənubi Qafqazın həm inzibati qurluşuna, həm demoqrafik xarakterinə müəyyən təsirləri olmuşdur. 1828-1829 və 1877-1878-ci illər Rusiya-Osmanlı müharibələri Zaqafqaziya və o cümlədən Gəncə ərazisinin demoqrafik strukturuna böyük ölçüdə təsir etmişdir. Rusiya imperiyasının tərkibində olmuş Gəncə quberniyasının ərazisi inzibati coğrafiyası da dəfələrlə dəyişikliklərə məruz qalmışdır. Bu dəyişikliklər Gəncə quberniyasının əhalisinin say dinamikasını, həm də ailə tərkibinə böyük ölçüdə təsir etmişdir. Bunun səbəblərindən biri, Rusiya hakimiyyəti, imperiyanın süqutunadək, bu ərazidə optimal inzibati-ərazi bölgü sistemi yaratmağa nail ola bilməməsidir [2, 508].

Cənubi Qafqaz üzrə indi də çox müxtəlif xarakterli və məqsədli tədqiqatlar üçün qiymətli qaynaqlar rolunu oynayan bu kameral təsvirlərdən (ilk tərtib 1842-1844-cü illər edilmişdir) ən sonuncusu 1873-cü ildə həyata keçirilmişdir. XIX əsrin 80-ci illərində siyahıyalmalar baxımından ən miqyaslı tədbir 1886-ci ilin ailə siyahılarının tərtibi, 90-ci illərində isə Rusiya imperiyası əhalisinin 1897-ci il yanvarın 15-də keçirilmiş birinci ümumi əhali sayımı olmuşdur. Bu qaynaqlar, o cümlədən 1886-ci il ailə siyahıları, həm də bütün diyarı, habelə Şimali Azərbaycan, o cümlədən də qədim Gəncə torpaqlarımızın, bu torpaqlarda XIX əsrin ortalarından XX əsrin əvvəllərinədək mövcud olmuş Yelizavetpol qəzasının inzibati qurluşunu öyrənmək üçün qiymətli qaynaqdır [4, 103].

Yelizavetpol quberniyası ərazisnin böyüklüyünə görə Cənubi Qafqazda ilk yerlərdən birini tutur. Ərazsisi 38992,22 kvard verst idi. Yuxarıda qeyd etdiyimiz kimi bu ölçünün tez-tez dəyişməsi onun say dinamikasına böyük ölçüdə təsir edirdi [4, 103].

Ümumiyyətlə problemin araşdırılmasında bəzi metodoloji məsələlərin öz həllini tələb edir. XIX əsr boyu Gəncə bölgəsi ilə bağlı kameral təsvirlərin müqayisəli şəkildə təsvir edilərək ümumi bir nəticə hasil edilməsi, siyasi hakimiyyətin dəyişilməsi və bunun demoqrafik vəziyyətə təsiri və bu kimi motivlərin problemə təsirlərini araşdırmaq vacib hesab edilir. Qarşıya qoyulan elmi problemin həllində ən mürəkkəb məsələlərdən biri qaynaqların vəziyyəti ilə əlaqədardır. Yəni Rusiya digər ölkələrlə, xüsusilə Qərb ölkələrin əhali statiskası ilə müqayisdə çox geridə qalmışdır. Belə ki, ilk əhali siyahıya almaları, ABŞ-da 1790-ci ildə, 1800-ci ildə İsveç, Danimarka, Finlandiya, Norveç, İngiltərə və Fransada

keçirildiyi halda, ilk Ümumrusiya əhali siyahıya alınması yalnız 1897-ci ildə keçirilmişdi. Növbəti əhali siyahıya almasının 1916-ci ildə keçirilməsi nəzərdə tutulurdu ki, Birinci dünya müharibəsi başlaması ilə tədbirin həyata keçirilməsi təxirə salınmışdı [2, 510].

1897-ci il siyahıya alınması haqqında Azərbaycan müəlliflərinin fikirləri maraqldır. Misal üçün, Məhəmməd Həsən Vəlili "Azərbaycan coğrafi-təbii,etnoqrafik və iqtisadi oçerk" adlı əsərində, Azərbaycan əhalisinin statistik göstəriciləri ilə bağlı şərhləri diqqətəlayiqdir. Xüsusilə, Gəncə bölgəsi ilə bağlı statistik məlumatların təhrif edildiyini bu əsərdə qeyd edilir. O, təkcə əhalinin statistik göstəricilərini verməklə kifayətlənmirdi. Həmçininn Azərbaycan əhalisinin demoqrafik göstəricilərinin reallığına mane olan səbəbləri araşdırmışdır. 1897-ci il ilin siyahıya alınmasının nəticələri ilə barışmadığını da dilə gətirir. "Fəqət 1897-ci ilin siyahıyi-ümumiyyəsi ətraflı deyildi, zəif idi. Çünki müsəlman əhalisi mədəniyyət cəhətdən ən geridə qaldıqları və həmçinin əsgər alınacaqlarından (aparılacaqlarından), torpaq mükəlləfiyyətlərindən və vergi artıralacağından ehtiyat etdikləri üçün siyahı tutulan zaman yazılmaqdan imtina edirdilər" [1, 17]. Biz bu fikri təhlil etsək, onda, Gəncə bölgəsi ilə baölı verilən rəqəmlərin də şübhəli olması qənaətinə gələ bilərik. Məhəmməd Həsən Vəlili, Azərbaycan əhalisinin real demoqrafik mənzərəsini yaratmağ əngəlləyən səbəblər içərisində maldar təsərrüfatı ilə məşğul olan köçəri əhalinin siyahıya alınma zamanı yaşadıqları kəndlərdən çox vaxt uzaqda-yaylaqlarda olmasını da qeyd edirdi. Nəzərə alsaq ki, Yelizavetpol quberniyasında yaşayan türk-müsəlman əhalinin böyük bir hissəsi yaylaq maldarlıq ilə məşğul olurdu, onda bu statistik göstəricilərin həqiqətə uyğun gəlmədiyini demək olar. Dolaysıyla Gəncə əhalisinin ailə tərkibinin statistik məlumatlarına da ehtiyatla yanaşılmalıdır [3, 16].

Məsələ ilə bağlı digər bir amil yuxarıda da qeyd etdiyimiz kimi siyasi motivlərin demoqrafik proseslərə təsirləri nə dərəcədə əhəmiyyətlidir. Demoqrafik tədqiqatların siyasi proseslərlə bağlılığının ətraflı şərhini isə hələ XX əsrin 20-ci illərində Məhəmməd Həsən Vəlili tam təfərrüatı ilə vermişdir. Belə ki, Azərbaycan əhalisinin doğru statistikasını əldə etməyinə mane olan səbəblərdən bəhs edərkən yazırdı: "Bu xətaları çar çinovnik və polisləri bilərəkdən buraxırdılar. Onlar qəsdən siyasi nöqteyi-nəzərdən müsəlman millətlərinin qədərini azaldırdılar və yainki gizlindən buna bais olurdular. Məsələn, siyahı tutulan zaman belə şayiə buraxırdılar ki, bu siyahı qoşun yığmağa, vergiləri və zemski vergiləri artırmağa görədir. Bu səbəbə müsəlmanların əksəri qeyd olunmaqdan qaçardılar. Ona görə Azərbaycan daxilində islam tayfalarının miqdarını bu rəqəmlərdən çox ehtimal etmək olur, əslində 10% çox göstərmək olur - yəni 2.150.000" [1, 17].

Dolasıyla qeyd olunan fikirlərdən belə bir nəticə hasil edə bilərik ki, əhalinin say dinamikası və onun xüsusi göstəriciləri Cənubi Qafqazın müsəlmanlar yaşayan bölgələrində təxmini hesablamlar və qeyri-dəqiq rəqəmlərə əsaslanmışdır.

Digər bir məlumat 1856-ci il məlumatına görə Şimali Azərbaycanda şəhər əhalisinin syaı 110 mini nəfər təşkil etmişdi. Bu dövrdə Şimali Azərbaycanın ən böyük şəhərlərindən olan Gəncə şəhərin əhalisi 10 mindən çox adam yaşayırdı.

Bildiyimiz kimi, çar Rusiyasının imperiya siyasətindən biri də, köçürmə siyasəti idi. 1828-ci ildə Şimali Azərbaycan Ruslar tərəfindən işğal edildikdən sonra, Gəncə bölgəsinə də köçürmə siyasətinə məruz qalmışdır. Bu iqtisadi-sosial natarzlıqların yaranmasına gətirib çıxardırdı. Öz pay torpaqlarından mərhrum olan yerli əhali öz yurdlarından baş götürüb getmək məcburiyyətində qalırdı. Belə ki, köçürmə nəticəsində XIX əsrin I yarısında-XX əsrin əvvələrinə qədər Gəncə quberniyasında 29 rus kəndi salınmışdır. Təbii bu dövrdə əhalinin artımı, təbii artım hesabından daha çox, miqrasiyaların hesabına baş verirdi.

Nəticə. XIX əsr Gəncə bölgəsinin əhalisinin ailə tərkibi, istər təbii coğrafi, istərsə də ictimai-sosial amillər sıx şəkildə bağlıdır. Başqa sözlə əhalinin artımı və məskunlaşması, ailə tərkibi ilə bağlı problemlərin yaranması, istərsə də həll edilməsi zamanı təbii və ictimai sosial amillərin qarşılıqlı surətdə bir-birilərinə ciddi təsir etmək imkanları mövcuddur.

ƏDƏBİYYAT

1. Məhəmməd Həsən Vəliyev. Azərbaycan: fiziki, coğrafi, etnoqrafik və iqtisadi oşerk. Bakı, Azərnəşr, 1993, 204 s.

2. Şükürov Kərim. Birinci dünya müharibəsi dövründə Cənubi Qafqazda demoqrafik vəziyyət / VIII uluslararası Atatürk kongresi, 13-15 Ekim 2015. Gəncə, 2015, s.507-519.
3. Məmmədov A. Tarixi demoqrafiya. Dərslik. Bakı, 2019, 230 s.
4. Основы теории народонаселения. Под ред. Валентея Д.И.М. Москва, Высшая школа, 1986, 376 с.

ГЮНАЙ АШУРОВА
научный сотрудник научно-исследовательской лаборатории
«Азербайджанцы мира: история-демография»
Бакинского государственного университета

СЕМЕЙНОЕ ПОЛОЖЕНИЕ НАСЕЛЕНИЯ ГЯНДЖИНСКОГО РАЙОНА В XIX ВЕКЕ В КОНТЕКСТЕ ДЕМОГРАФИЧЕСКИХ ПРОБЛЕМ

Следы колониальной политики Российской империи мы ощущаем в нашем регионе и сегодня. Поскольку Южный Кавказ является отдаленной границей России, реформы, проводимые в центре России, дошли до этих территорий поздно, и почти все прогрессивные вопросы в регионе начались поздно. В Гянджинском районе одной из причин, от которых зависели состав семьи и демографические показатели, стала миграция и вынужденное перемещение местного населения из своих домов. Таким образом, мы видим основное место Гянджи в Южно-Кавказском регионе в колониальной политике России и некоторые нарушения в ее демографической ситуации.

Ключевые слова: Гянджинская губерния, демография, состав семьи, Россия, колониальная политика.

GUNAY ASHUROVA
research assistant at the research laboratory
"Azerbaijanis of the World: History and Demography"
of Baku State University

IN THE NINETEENTH CENTURY, THE FAMILY SITUATION OF THE POPULATION OF GANJA REGION IN THE CONTEXT OF DEMOGRAPHIC PROBLEMS

We still feel the traces of the colonial policy of the Russian Empire in our region today. Since the South Caucasus is the remote borders of Russia, the reforms carried out in the center of Russia arrived late to these areas and almost all progressive issues as a region started late. In the Ganja region, one of the reasons on which the family composition and demographic indicators depended was migration and forced displacement of the local population from their homes. Thus, we can see the main place of Ganja in the South Caucasian region in the colonial policy of Russia, and some irregularities in its demographic situation.

Keywords: Ganja governorate, demography, family composition, Russia, colonial policy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər:t.ü.f.d. Elgün Qəhrəmanov, t.e.d. Qabil Əliyev.